**Azərbaycan Milli Elmlər Akademiyası**
**Arxeologiya və Etnoqrafiya İnstitutu**

*Əlyazması hüququnda*

CƏMILƏ VAQIF QIZI HƏSƏNOVA

# MİL-QARABAĞ BÖLGƏSİNİN İLK TUNC DÖVRÜ MADDİ MƏDƏNİYYƏTİ

İxtisas: 5505.02- Arxeologiya

Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI-2017**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun "Eneolit və Erkən tunc dövrü" şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Hidayət Fərrux oğlu Cəfərov**
*tarix üzrə elmlər doktoru, professor*

**Rəsmi opponentlər:** ***Qüdrət Seyfulla oğlu İsmayılzadə***
*tarix üzrə elmlər doktoru, professor*

***Təvəkkül Rəsul oğlu Əliyev***
*tarix üzrə fəlsəfə doktoru*

**Aparıcı elmi müəssisə**: Azərbaycan Dövlət Pedaqoji Universitetinin **"Ümumi tarix"** kafedrası

Müdafiə Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutu nəzdində fəaliyyət göstərən tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün yaradılmış (5505.02 – "Arxeologiya") dissertasiyaların müdafiəsini həyata keçirən F/D 01.171 Dissertasiya Şurasının "__" ________ 2017- ci il tarixli iclasında saat "____" da keçiriləcəkdir.

**Ünvan: AZ1043, Bakı şəhəri, H. Cavid prospekti, 115**
Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun elmi kitabxanasında tanış olmaq mümkündür.
Avtoreferat "___" ________ 2017-ci ildə göndərilmişdir.

**F/D 01.171**
**Dissertasiya Şurasının** **Səfər Hüseyn oğlu Aşurov**
**Elmi katibi** *tarix üzrə fəlsəfə doktoru*

## TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Azərbaycanda qədim dövr abidələrinin zənginliyi ilə əhəmiyyətli dərəcədə fərqlənən Qarabağ ərazisi arxeoloji qazıntılarla XIX əsrin 90-cı illərindən öyrənilməyə başlamışdır. Keçən müddət ərzində bu ərazidə bir neçə nəsil arxeoloqlar tərəfindən çoxsaylı və müxtəlif dövrləri əhatə edən yaşayış və qəbir abidələri qeydə alınmış, onların bir çoxunda arxeoloji qazıntılar aparılmışdır. Həmin arxeoloqların bəziləri peşəkarlıqdan kənar olsalar da, əksəriyyəti sözün əsl mənasında öz peşəsinin sirlərinə dərindən bələd olan mütəxəssislər olmuşlar.

Əldə olunan maddi dəlillər bir sıra xüsusi istiqamətli və ya ümumiləşdirilmiş tədqiqat işlərinin ərsəyə gəlməsində qiymətli mənbə rolunu oynamışlar. Tədqiqat mövzumuz, bütövlükdə Mil-Qarabağla bağlı olduğunu nəzərə alaraq, Qarabağın arxeoloji baxımdan öyrənilməsi ilə yanaşı, eyni ifadələri Mil bölgəsinə də aid edirik. Qeyd edək ki, Mil bölgəsində arxeoloji qazıntı və araşdırmalara bir qədər gec (az qala yüz il fərqlə) başlanılmışdır. Bir neçə abidə nəzərə alınmazsa, burada araşdırmalar əsasən axtarış - kəşfiyyat xarakterli olmuş və vizual müşahidələrə əsaslanmışdır.

Bütövlükdə mövzumuzun əhatə etdiyi Mil-Qarabağın arxeoloji baxımdan yetərincə öyrənilməsi faktını inkar etmək olmaz. Özü də, arxeoloji dövrləşmənin bütün mərhələləri, demək olar ki əhatə olunmuşdur - poleolit dövründən tutmuş orta əsrlərə qədər. Lakin bu, ilk baxışda belə görünür. Çünki, bir çox hallarda arxeoloji tədqiqatlar həm dövr, həm də ərazi baxımından regionun bu və ya digər bölgəsini, necə deyərlər, mikrorayonunu əhatə etmişdir. Belə tədqiqatlar haqqında təqdim olunan dissertasiya işimizdə yeri gəldikcə məlumatlar vermişik.

Dissertasiya işində Mil-Qarabağ bölgəsinin ilk tunc dövrü maddi mədəniyyətini ayrıca götürülmüş bir tədqiqat obyekti kimi işlənilməsinə ilk dəfə müraciət edilir. Tədqiq olunan mövzunun aktuallığının əsas göstəricilərindən biri budur.

İkinci məsələ, Mil-Qarabağ bölgəsinin ilk tunc dövrü mədəniyyətinin öyrənilməsi ilə yanaşı bir sıra digər problemlərin tədqiqata cəlb edilməsi ilə bağlıdır. Məsələ burasındadır ki, tədqiqatımız təkcə yaşayış yerlərinin, qəbir abidələrinin və arxeoloji materialların təhlili ilə bitmir. Burada həmin dövrün yaşayışı (yaşayış yerləri), qədim insanların axirət dünyası ilə bağlı dini ideoloji baxışları, artefaktlar kompleks şəkildə təhlil edilir. Bu faktın özü də mövzunun aktuallığına müsbət təsir göstərən amillərdəndir.

Mövzunu aktual edən əsas faktorlar sırasında tədqiqata cəlb olunmuş bölgənin müəyyən ərazilərinin erməni təcavüzkarlarının işğalı altında qalması nəticəsində yerlərdəki abidələrin taleyinin qeyri-müəyyən olması ilə bağlıdır. Çox güman ki, erməni vandallarının başqa dövr abidələri ilə yanaşı mövzumuzun əhatə etdiyi Xankəndi, Xaçınçay, Qaraköpəktəpə və s. kimi ilk tunc dövrü abidələrini yaxşı halda özünüküləşdirilməsi, pis halda isə dağıtması və yer üzündən silməsi təhlükəsini də nəzərdən qaçırmaq olmaz. Odur ki, dövründən və təyinatından asılı olmayaraq işğal altında olan ərazilərimizdə qalan abidələrin yeni-yeni tədqiqatlara cəlb edilməsi vacib məsələ kimi daima gündəmdə durmalıdır. Təqdim olunan mövzunu elmi cəhətdən araşdırmaqla biz imkan daxilində bu sahəyə öz töhfəmizi verməyə çalışmışıq. Çünki, gənc nəslin bir hissəsi həmin ərazilərin tarixi, arxeologiyası, mədəniyyəti, qədim dövr incəsənəti və digər xüsusiyyətləri haqqında bəlkə də, kifayət qədər məlamata malik deyillər. Təqdim olunan dissertasiya işi, həm də yaddaşların təzələnməsi üçün yardımçı vasitə ola bilər.

**Tədqiqatın məqsəd və vəzifələri.** Təqdim olunan dissertasiya işinin əsas məqsədi Mil-Qarabağ bölgəsinin ilk tunc dövrü tayfalarının maddi mədəniyyətini kompleks şəkildə tədqiq etməkdən ibarətdir. Məqsəd Mil-Qarabağ bölgəsinin vahid etnik-mədəni birlik çərçivəsində vəhdət təşkil etməsini, ərazinin düzənlik, dağətəyi və dağlıq zonalarında yaşamış, fəaliyyətdə olmuş etnik massivin eyni mədəni-etnik birliyinin tərkib hissəsi olmasını faktik dəlillərlə araşdırmaqla elmə töhfələr verməkdən ibarətdir. Bunlarla yanaşı, bölgənin ilk tunc dövrü mədəniyyətinin özünəməxsus cəhətlərini göstərməklə yanaşı, ümumazərbaycan əkinçi-maldar tayfaların yaratdığı mədəniyyətin tərkib hissəsi olması həqiqətini də oxuculara çatdırmaq qarşıya qoyulan məqsəd çərçivəsindədir.

Bu kontekstdən çıxış etdikdə tədqiqat işinin qarşısında duran mühüm vəzifələr aşağıdakılardan ibarətdir:

- Bölgənin təbii-coğrafi şəraiti haqqında qısa məlumat vermək;
- Mil-Qarabağ bölgəsinin arxeoloji baxımdan tədqiqi səviyyəsini araşdırmaq;
- Yaşayış məskəni və qəbir abidələrinin yerləşmə coğrafiyası, koordinatlarını və durumunu müəyyən etmək;
- Bölgənin ayrı-ayrı ərazilərindəki abidələrin və artefaktların oxşar və fərqli cəhətlərini, qarşılıqlı münasibətlərini araşdırmaq;

- Tədqiq olunan dövrdə yerli əhalinin təsərrüfat həyatının müxtəlif sahələrinin inkişaf səviyyəsini, ətraf aləmlə mümkün əlaqələrini tədqiqata cəlb etmək;
- Bölgənin ən qədim zamanlardan vahid Azərbaycan ərazisinin tərkib hissəsi olmasını, dövrlər arasındakı mədəni-etnik varisliyin danılmazlığını qabartmaq önəmli yer tutmuşdur.

**Tədqiqatın obyekti.** Təqdim olunan dissertasiya işinin əsas tədqiqat obyekti Mil-Qarabağ bölgəsinin erkən tunc dövrünə aid yaşayış yerləri və qəbir abidələridir. Dağlıq zonanın Xaçınçay, Xankəndi, dağətəyi zonanın Qaraköpəktəpə, Borsunlu, Göytəpə, Qarahacı, düzənlik zonanın Üçtəpə, Uzuntəpə, Kültəpə, Çardaxlıtəpə, Şortəpə və s. kimi abidələri əsas obyektlər sırasındadır. Müxtəlif xarakterli və mənsubiyyətli abidələrdən əldə olunmuş artefaktların kompleks halında, analoji materialları da cəlb etməklə müqayisəli təhlili, aparıcı elementlərin üzə çıxarılması, dövrün təsərrüfat həyatı, əhalinin məşğuliyyət sahələrinin araşdırılması kimi məsələlər də tədqiqat obyektləri sırasındadır.

**Tədqiqatın elmi metodu.** "Mil-Qarabağ bölgəsinin ilk tunc dövrü maddi mədəniyyəti" adlı mövzunun tədqiqində tarix elmində qəbul olunmuş elmə tarixi gerçəklikdən yanaşma, müqayisəli təhlil, analitik və məntiqli araşdırma metodlarından istifadə edilmişdir. Bununla yanaşı, yaşayış və dəfn adətlərinin qarşılıqlı müqayisə edilməsi, onların qarşılıqlı təhlili, etnik mənsubiyyət, dövrləşmə məsələlərində bu sahə üzrə mütəxəssislərin irəli sürdüyü və elmi təqdirdən keçmiş mülahizə və fikirlərin müqayisəli təhlili aparılmış, yeri gəldikcə müəlliflik hüququnun da imkanlarından istifadə edilmişdir.

**Tədqiqatın xronoloji çərçivəsi.** Tədqiqat işi Mil-Qarabağ bölgəsinin erkən tunc dövrü ilə bağlıdır. Qəbul olunmuş dövrləşmə baxımından xronoloji tarixlənmədə bu dövr e.ə. IV minilliyin ortalarından e.ə. III minilliyin son rübünə qədər olan dövrü əhatə edir. Tədqiqata cəlb olunmuş yaşayış və qəbir abidələri həmin xronoloji çərçivənin müxtəlif pillələrində qərarlaşmışlar. Ona görə də bu və ya digər abidə kompleksinin ümumi ilk tunc dövrü Kür-Araz mədəniyyətinin fərqli mərhələlərinə aid edilməsi təbii hal kimi qəbul olunmalıdır.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işinin elmi yeniliklərini bir neçə istiqamətdə xarakterizə etmək olar. İlk dəfə olaraq Qarabağ və Mil bölgələrinin ilk tunc dövrü maddi mədəniyyəti ayrı-ayrılıqda deyil, vəhdət halında, vahid etnik-mədəni və coğrafi mühitin tərkib hissəsi kimi, kompleks şəklində araşdırılmışdır. Bundan başqa, Mil-Qarabağ bölgəsinin bütün məlum abidələri tək-tək yox, qarşılıqlı halda kompleks şəkildə

tədqiqata cəlb olunub. Bu cür sistemli yanaşma metodunun tətbiqi yaşayış və qəbir abidələrinin bir-birini tamamlanmasına işıq salmağa kömək etmişdir.

Elmi yeniliklər sırasına müəllifin bilavasitə iştirakı ilə Mil düzünün dərinliyində, Beyləqan rayonunun Çəmənli kəndi yaxınlığındakı 14 hektar sahəni əhatə edən və dörd təpədə yerləşmiş "Çardaxlı təpələri" ilk tunc dövrü yaşayış yerinin tədqiq olunaraq elmi dövriyyəyə daxil edilməsini də qeyd etmək olar.

**Tədqiqatın mənbə bazası.** Dissertasiya işinin ərsəyə gəlməsində müxtəlif mənbələrdən istifadə olunmuşdur. İlk növbədə buraya Mil-Qarabağ bölgəsinin tədqiqatın xronoloji çərçivəsinin əhatə etdiyi yaşayış və qəbir abidələri, həmin abidələrdən aşkar olunan artefaktlar təşkil edir. Bununla yanaşı, AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun elmi arxivindəki hesabatlardan, bilavasitə bölgənin arxeoloji abidələrini özündə ehtiva edən monoqrafiq əsərlər, məqalələr və konfrans materiallarından da geniş istifadə olunmuşdur. Ehtiyac olduğu halda göstərilən mənbələrə kritik yanaşılmış, bu və ya digər məsələ ilə bağlı fikirlərə münasibət bildirilmişdir.

**Tədqiqatın öyrənilmə səviyyəsi.** Mil-Qarabağ bölgəsinin ilk tunc dövrü abidələrində arxeoloji qazıntı və tədqiqat işlərinə hələ XIX əsrin sonlarından başlanılsa da, onların vahid etnik-mədəni prosesin tərkib hissəsi kimi araşdırılması tədqiqatdan kənarda qalmışdır. Bununla belə, qeyd olunmalıdır ki, ərazinin arxeoloji baxımdan öyrənilməsi, yeni abidələrin qeydə alınması, xəritələşdirilməsi, qazıntı nəticələrinin hesabatlarda və elmi nəşrlərdə əks olunması istiqamətində xeyli iş görülmüşdür. Qeyd edək ki, ərazinin arxeoloji baxımdan öyrənilməsinə təqdim olunan dissertasiya işində ayrıca fəsil həsr olunmuşdur. Odur ki, təkrarlığa yol verməmək üçün burada bəzi detalları xatırladırıq. Bölgənin qədim abidələrinin arxeoloji baxımdan tədqiqi və qismən qazıntılarla öyrənilməsinə XIX əsrin 80-90-cı illərindən başlanılmışdır. Bu məsələ ilə bağlı bölgədə vizual müşahidələr aparmış S.Veyssenqof, arxeoloji abidələri qeydə alaraq arxeoloji qazıntılar aparmış Emil Resler, XX əsrin müxtəlif mərhələlərində bu işi yerinə yetirmiş Y.İ.Hümmel, A.A.İyessen, İ.H.Nərimanov, Q.S.İsmayılzadə, H.F.Cəfərovun əməyi və xidmətləri qeyd olunmalıdır. Əlbətdə, söhbət bölgənin erkən tunc dövrü abidələrinin tədqiqindən gedir.

Bölgənin ilk tunc dövrü abidələrinin qeydə alınması və araşdırılması müəyyən qədər XX əsrin 50-ci illərini əhatə etsə də, aparıcı mərhələ əsasən 60-80-cı illərə təsadüf edir. Məhz həmin dövrdə A.A.İyessen,

İ.H.Nərimanov, Q.S.İsmayılzadə, H.F.Cəfərovun sistemli və davamlı arxeoloji tədqiqatları sayəsində Mil-Qarabağ bölgəsində başqa dövr abidələri ilə yanaşı erkən tunc dövrünün yaşayış və qəbir abidələridə aşkar olunaraq, elmi dövriyyəyə daxil edilmişdir.

2008-ci ildən Azərbaycan arxeologiya elminin inkişafında keyfiyyətcə yeni mərhələ başlanmışdır. Dövlət rəhbərliyinin bu sahəyə xüsusi qayğısı və maliyyə dəstəyi sayəsində aparılan məqsədyönlü və intensiv arxeoloji araşdırmalarla Mil-Qarabağın özündə, habelə ona bitişik olan regionlarda, həmçinin Azərbaycanın başqa bölgələrində də müxtəlif dövrlü, o cümlədən ilk tunc dövrünün arxeoloji abidələri aşkar olunmuşdur. Sonuncu sadalananlar ərazi baxımdan mövzumuza birbaşa daxil olmasa da, müqayisələr üçün, həm də ümumiyyətlə, Azərbaycanın ilk tunc dövrü abidələrinin qarşılıqlı cəhətdən elmi müstəvidə öyrənmək üçün çox dəyərlidir. Belə müqayisəli metodun bir sıra problemlərin işıqlandırılmasında əhəmiyyətli rol oynayacağı şərhsizdir. Dissertasiya işində bu mövzu ilə bağlı hər kəsin xidmətinin nəzərə alınmasına cəhd göstərilmişdir.

**Tədqiqat işinin əməli əhəmiyyəti.** Hər bir dissertasiya işinini yazılmasında qarşıya qoyulan əsas vəzifələrdən biri onun əhəmiyyətinə diqqət yetirilməsindədir. Təqdim olunan tədqiqat işinin nəticələri aşağıdakı sahədə tətbiq oluna bilər:

- Azərbaycanın tunc və ilk dəmir dövrü arxeologiyası ilə bağlı bir sıra elmi problemlərin araşdırılmasında;
- İlk tunc dövrünə aid yaşayış yerləri ilə bağlı monoqrafiq əsərlərin yazılmasında;
- İlk tunc dövrünün qəbir abidələri, dəfn adətləri ilə bağlı elmi tədqiqat işlərinin yazılmasında;
- arxeoloji araşdırmalarda önəmli əhəmiyyətə malik olan yaşayış və dəfn abidələrinin qarşılıqlı mənsubiyyəti, artefaktlardakı oxşar və ya fərqli məsələlərin işıqlandırılmasında;
- Mövzunun əhatə etdiyi dövrlə bağlı ümumiləşdirilmiş və ya elmi-kütləvi əsərlərin yazılmasında;
- Ali məktəblərdə arxeologiya ixtisası üzrə təhsil alan tələbələrə seçmə fənlərin tədris olunmasında

**Dissertasiyanın təqdir olunması.** Tədqiqat işi AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun "Eneolit və ilk tunc dövrü" arxeologiyası şöbəsində yerinə yetirilmişdir. Dissertasiya işinin iki dəfə "Eneolit və ilk tunc dövrü" arxeologiyası şöbəsində, "Arxeoloji xidmət", "Tunc və ilk dəmir dövrü", "Etnoarxeologiya", "Tədris və elmi nəşrlər",

"İlk orta əsrlər dövrü" şöbələrinin əməkdaşlarının da iştirakı ilə müzakirəsi keçirilmişdir. Tədqiqatın məzmunu iddiaçının müxtəlif elmi konfrans materiallarında, yerli və xarici ölkələrin elmi jurnallarında nəşr olunmuş məqalələrində əks olunmuşdur. Dissertant həmçinin "Qarabağ" arxeoloji ekspedisiyasının çöl-tədqiqatlarında 2011-ci ildən mütəmadi iştirak etmiş və bu arxeoloji araşdırmaların nəticələri müəllif tərəfindən dissertasiyaya daxil edilmişdir.

**Dissertasiyanın quruluşu.** Təqdim olunan dissertasiya işi giriş, dörd fəsil və nəticədən ibarətdir. Tədqiqat işinə qəbul olunmuş ixtisarlar, istifadə olunmuş ədəbiyyat siyahısı, habelə artefaktların foto və rəsmlərini əhatə edən illüstrativ materiallar əlavə olunmuşdur.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Əsərin "Giriş" hissəsində mövzunun aktuallığı, tədqiqatın məqsəd və vəzifələri, obyekti, elmi metodu, xronoloji çərçivəsi, elmi yeniliyi, mənbə bazası, öyrənilməsi, əməli əhəmiyyəti, təqdir olunması kimi məsələlər öz əksini tapmışdır.

**Dissertasiyanın I fəsli "Mil-Qarabağın təbii-coğrafi şəraiti və ilk tunc dövrü arxeoloji abidələrinin öyrənilmə tarixi" adlanır.** Fəsil iki yarımfəsildən ibarətdir. **"Mil-Qarabağın təbii-coğrafi şəraiti" adlı birinci yarımfəsildə** ərazinin əhatə etdiyi zonadakı coğrafi mühit ekosistem meşə örtüyü, dağ silsilələri, keçidlər, təbii sərvətlər, çaylar və su ehtiyatı və s. haqqında məlumat verilir. Göstərilir ki, əsrlər boyu, ən qədim zamanlardan başlayaraq belə zəngin təbiətə, yaşayış üçün əlverişli iqlim şəraitinə, meşə örtüyünə, alp çəmənliklərinə, bol sulu çaylara, heyvanat aləminə malik olan bu ərazidə mütəmadi yaşayış olmuşdur.

**"Mil-Qarabağın arxeoloji abidələrinin öyrənilməsi tarixi" adlı ikinci yarımfəsildə** mövzunun xronoloji çərçivəsinə uyğun olan arxeoloji abidələrin aşkarlanması və tədqiq olunması tarixi araşdırılmışdır. Mil-Qarabağın bütövlükdə arxeoloji cəhətdən, o cümlədən ilk tunc dövrü abidələrinin qeydə alınması və tədqiqi baxımdan öyrənilməsinə XIX əsrin 80-90-cı illərindən başlanılmışdır. Məsələn, S.Veyssenqof 1883-cü ildə Mil-Qarabağa səfər etmiş və başqa abidələrlə yanaşı Üçtəpə kurqanları haqqında məlumat vermişdir.

1897-ci ildə ilk dəfə olaraq Emil Resler tərəfindən Xaçınçayın ilk tunc dövrü kurqanlarında arxeoloji qazıntı işləri aparılmışdır. Həmin kurqan abidələrinin erkən tunc dövrünə mənsubluğunu XX əsrin 40-cı illərində B.B.Piotrovski müəyyən etmişdir.

Ərazinin ilk tunc dövrünə aid növbəti abidələri olan Xankəndi kurqanlarını 1933-1939-cu illərdə Y.Hümmel açıb öyrənmişdir. Elə həmin vaxt Xankəndində L.P.Taşçyan digər ilk tunc dövrü kurqanında qazıntı aparmışdır. Qazıntıların nəticələri müvafiq məcmuələrdə dərc olunmuşdur. Abidələrin xronoloji çərçivəsini isə Y.İ.Hümmel müəyyən etmişdir.

XX əsrin 30-cu illərindən kəsilən bölgənin ilk tunc dövrü abidələrinin tədqiqindəki uzun müddətli fasiləyə 50-ci illərdə A.A.İyessenin rəhbərliyi ilə fəaliyyətə başlamış kompleks arxeoloji ekspedisiyanın araşdırmaları ilə son qoyulmuşdur. Həmin ekspedisiya Mil-Qarabağda ilk dəfə olaraq Çardaxlı təpələri, Göytəpə, Qasımtəpə kimi yaşayış məskənlərini qeydə almış, Üçtəpə kurqanlarından birində isə qazıntı işləri aparmışdır. A.A.İyessen qazıntıya qədər bu kurqanın Skif dövrünə aid olduğunu güman etsə də, abidədən ilk tunc dövrünə aid arxeoloji materiallar aşkar olunmuşdur.

XX əsrin 60-80-cı illərindən Q.S.İsmayılzadənin rəhbərliyi ilə aparılan geniş tədqiqatların gedişində bölgənin çoxtəbəqəli Qaraköpəktəpə abidəsində sistemli arxeoloji qazıntılara başlanmış, eyni zamanda kəşfiyyat-axtarış işləri ilə yeni yaşayış abidələri (Günəştəpə, Meynətəpələri, Uzuntəpə, Kültəpə, Şomulutəpə və s.) aşkar olunaraq elmi dövriyyəyə daxil edilmişdir. O, eyni zamanda yüksək dağlıq zonalarda mövsümü yaşayış yeri (Azyurdu), habelə qayaüstü rəsmləri qeydə almışdır. Tədqiqatlar nəticəsində Qarabağın düzən, dağətəyi, həm də dağlıq zonasında ilk tunc dövrü abidələrinin varlığı, yerləşməsi, maddi dəlillərin olması müəyyən edilmişdir. Bunların sırasında çoxtəbəqəli Qaraköpəktəpə yaşayış yerinin elmi əhəmiyyəti xüsusi qeyd olunmalıdır. Q.İsmayılzadə arxeoloji axtarışlar və qazıntıların nəticələrini geniş şəkildə nəşr etdirmişdir.

Bölgədə İ.H.Nərimanovun rəhbərliyi ilə XX əsrin 60-cı illərindən başlayan arxeoloji ekspedisiya öz fəaliyyətini 90-cı illərin əvvəllərinə qədər davam etdirmişdir. Aşkar olunan və tədqiq edilən abidələr əsasən eneolit dövrünə aid olsa da, o, bir neçə ilk tunc dövrü yaşayış yerini də qeydə almışdır (Qarahacılı, Cüttəpə və s.).

Qarabağın eneolit və tunc dövrünün abidələrinin sistemli və hərtərəfli tədqiqinə XX əsrin 80-cı illərindən başlanılmışdır. Bu abidələrin bir qismi arxeoloq H.F.Cəfərov tərəfindən qeydə alınaraq, elmi dövriyyəyə daxil edilmişdir. Müxtəlif dövrlərə aid haqqında danışılan arxeoloji abidələrin bir qrupu bizim elmi-tədqiqat işimizin mövzusu ilə bağlıdır. Bunların sırasında Ağdam rayonundakı Üçoğlan I və II, Vəlibəy təpələri, Sarıcalıtayı, Ağtəpə, Böyüktəpə, Qaçaytəpə; Ağcabədi rayonundakı

Gərtəpə, Dəyirmanyeri, Binnət təpə; Bərdə rayonu ərazisində Şortəpə (Balatəpə) yaşayış yerləri, Tərtər rayonundakı Borsunlu nekropolunun ilk tunc dövrü kurqanları xüsusilə qeyd olunmalıdır. Axtarışların nəticələri haqqında elmi ədəbiyyatda müxtəlif məlumatlar verilmişdir. Apardığımız tədqiqatlar zamanı yaşayış yerləri ilə yanaşı qəbir abidələrinin də varlığı müəyyən olunmuş, abidələrin yerləşmə coğrafiyası, xarakteri, dövrləşməsi, maddi dəlillərin təhlili kimi məsələlərə toxunulmuşdur.

2008-ci ildən bu günədək H.F.Cəfərov Qarabağda arxeoloji tədqiqatları yenidən davam etdirir. 2011-2016-cı illərdə H.F.Cəfərovun rəhbərliyi ilə Qarabağ arxeoloji ekspedisiyasının tərkibində dissertasiya müəllifi tərəfindən yeni abidənin (Çardaxlı təpələri) qeydə alınması, onların bəzilərində arxeoloji qazıntı işlərinin aparılması, hesabatların işlənməsi kimi məsələlər həyata keçirilmişdir.

2013-2014-cü illərdə həmin ekspedisiyanın tərkibində tərəfimizdən Mil düzündə, Beyləqan rayonunun Çəmənli kəndi yaxınlığındakı Çardaxlı təpələrinə baxış keçirilmiş, yerüstü materiallar toplanılmış, yoxlama-kəşfiyyat qazıntısı aparılmışdır. Əldə olunmuş materiallar haqqında elmi mətbuatda çıxışlar etmişəm.

Mil-Qarabağın ilk tunc dövrü abidələri və problemləri haqqında yazmış müəlliflər sırasında E.Resleri, Y.İ.Hümmeli, A.A.İyesseni, İ.H.Nərimanovu, R.M.Munçayevi, Q.S.İsmayılzadəni, K.X.Kuşnaryevanı, H.F.Cəfərovu göstərmək olar.

Mövzumuzun əhatə etdiyi Mil-Qarabağ bölgəsindən başqa savayı Azərbaycanın ayrı-ayrı güşələrində ilk tunc dövrü abidələrinin qeydə alınması və elmi dövriyyəyə çıxarılmasında bir çox dəyərli arxeoloqların, tədqiqatçıların rolunu qeyd etməyi də vacib sayırıq. Bunlardan Naxçıvan üzrə O.H.Həbibullayev, V.H.Əliyev, A.Q.Seyidov, V.B.Baxşəliyev, N.Ə.Müseyibli, S.H.Aşurov; Gəncəçay-Goranboy-Göygöl bölgəsi üzrə M.M.Hüseynov, B.M.Cəlilov; Xaçmaz-Dəvəçi-Mingəçevir-Şəki-Zaqatala bölgəsi üzrə C.Ə.Xəlilov və H.P.Kəsəmənli, D.Musayev, S.Qazıyev, Q.Q.Aslanov, T.İ.Axundov; Şəmkir-Tovuz-Qazax-Daşkəsən bölgəsi üzrə İ.M.Cəfərzadə, İ.H.Nərimanov, Q.S.İsmayılzadə, N.Ə.Müseyibli, H.P.Kəsəmənli, H.F.Cəfərov və başqaları yetərli tədqiqat işləri ilə Azərbaycanın erkən tunc dövrünün bir sıra problemlərinin araşdırılmasında əhəmiyyətli rol oynamışlar. Bütövlükdə, Azərbaycanda başqa dövrlərlə yanaşı ilk tunc dövrü problemlərinin araşdırılması istiqamətində tədqiqatlar aramsız davam etdirilir.

**Dissertasiyanın ikinci fəsli "Mil-Qarabağın ilk tunc dövrü yaşayış yerləri" adlanır.** Burada beş yarımfəsil cəmləşdirilmişdir. Yaşayış

yerləri Mil-Qarabağa daxil olan bölgələr timsalında şərh olunmuşdur. **"Füzuli bölgəsinin ilk tunc dövrü yaşayış yerləri" adlanan birinci yarımfəsildə** burada arxeoloji tədqiqatlarla öyrənilmiş Qaraköpəktəpə, Günəştəpə, Xantəpə, Kültəpə, Şomulutəpə, Uzuntəpə, Meynətəpə kimi yaşayış yerləri haqqında ətraflı məlumat verilir.

Qeyd etmək lazımdır ki, bu bölgənin ilk tunc dövrü abidələrinin qeydə alınması, arxeoloji tədqiqatların aparılması, nəticələrinin nəşri haqlı olaraq Qüdrət İsmayılzadənin adı ilə bağlanır. O, burada 1964-cü ildən 1980-cı illərin sonlarına kimi geniş arxeoloji tədqiqatlar aparmışdır. Bölgənin yuxarıda adları çəkilən ilk tunc dövrü abidələri arasında yalnız Qaraköpəktəpədə əsaslı, stasionar arxeoloji qazıntılar aparılmış, qalanlarında isə kəşfiyyat xarakterli tədqiqatlarla öyrənilmişdir.

Qaraköpəktəpə qədim yaşayış yeri çoxtəbəqəlidir. Sahəsi 4 hektara yaxındır. Burada həyat eneolit dövründən orta əsrlərə qədər davam etmişdir. 15 m-lik mədəni qatdan 7 m qalınlıqda olan ilk tunc dövrü təbəqəsi öyrənilmişdir. Araşdırmalarla bu təbəqənin aşağı "A" qatı və yuxarı "B" qatı seçilmişdir. İlk tunc dövrünə aid beş (5) tikinti qatının üçü aşağı "A" yarusunda (qatında), ikisi isə yuxarı "B" yarusunda olmuşdur. Abidənin ilk tunc dövrünün dövrləşməsi də həmin yarusların materialları əsasında ilkin və inkişaf etmiş mərhələlərə ayrılmışdır.

Araz çayının sol sahil zonasında yerləşən Kültəpə yaşayış yerinin sahəsi 4 hektardan artıqdır. Burada 1965 və 1967-ci illərdə yoxlama-kəşfiyyat işləri aparılmışdır. Abidə çoxtəbəqəlidir (eneolit, tuncun bütün mərhələləri, ilk dəmir dövrü, qismən sonrakı dövrlər). Kültəpənin ətrafındakı kiçik təpələrdən ibarət yaşayış yeri qalıqları da əsas yaşayış məskəni ilə bir böyük kompleks təşkil edirlər. Abidənin ilk tunc dövrü keramikası boz, qara və qırmızı rəngli, yarımşarşəkilli qulpları olan səthi cilalı qab nümunələrindən ibarətdir.

Bu bölgənin digər abidələri içərisində Meynətəpə, Uzuntəpə, Şomulutəpə və Günəştəpə yaşayış yerlərini də xüsusi qeyd etmək lazımdır. Bu yaşayış yerləri də çoxtəbəqəli olub, əsasən tunc dövrünün müxtəlif mərhələlərini əhatə edirlər. Abidələr Quruçay və Köndələnçay vadisi ilə yanaşı, habelə Arazın qədim yatağının hündür sol sahil zonasında yerləşmişlər. Qaratəpədə və digər aidələrdə aparılan stasionar və yoxlama axtarışları bütövlükdə bölgədə ilk tunc dövründə həyatın intensiv olmasını göstərir.

**II fəslin ikinci yarımfəslində** Beyləqan bölgəsində məlum olan 14 hektardan artıq sahədə yerləşmiş, 4 təpədən ibarət Çardaxlı təpələri ilk tunc dövrü abidəsi haqqında məlumat verilir. Toplanmış keramika və daş

məmulatı ilk tunc dövrünün ilkin və inkişaf etmiş mərhələləri üçün xarakterikdir.

**Bu fəslin üçüncü yarımfəslində** Ağcəbədinin Cüttəpə, Dəyirman yeri, Binnət təpə, Gərtəpə yaşayış məskənləri, Bərdənin Şortəpə yaşayış yeri, Ağdamın Üçoğlan I və Üçoğlan II, Ağtəpə, 1-ci və 2-ci Vəlibəytəpələri, Böyüktəpə, Qaçaytəpə, Qarahacı yaşayış yerləri yer alır.

Tədqiqatçıların fikrincə (İ.H.Nərimanov, H.F.Cəfərov) Qarabağın Cüttəpə, Dəyirman yeri, Gərtəpə, Üçoğlan, Qarahacı kimi abidələrinin bəzi keramika nümunələrində həm eneolit, həm də ilk tunc dövrünün erkən mərhələsi üçün xarakterik əlamətlərin olması Kür-Araz mədəniyyətinin yerli köklərə bağlılığını göstərən faktlardır.

Kəlbəcərin alp çəmənliklərində aşkar olunmuş "Azyurdu" abidəsi qeydə dağlıq zonanın yeganə yaşayış yeri kimi alınmışdır.

**II Fəslin dördüncü yarımfəslində** Mil-Qarabağın ilk tunc dövrü yaşayış yerlərinin yerləşmə qanunauyğunluğu, topoqrafiyası, tikinti texnikası və tikinti qalıqları nəzərdən keçirilmişdir. Araşdırmalardan mlum olur ki, Mil-Qarabağı ilk tunc dövrü yaşayış yerləri düzənlik (Çardaxlı təpələri, Günəştəpə, Kültəpə, Şomulutəpə, Meynətəpə, Uzuntəpə, Cüttəpə, Dəyirman yeri, Üçoğlan, Şortəpə və s.), dağətəyi (Qaraköpəktəpə, Günəştəpə, Qarahacı, Göytəpə və dağlıq (Azyurdu) zonalarda yerləşmişdir.

Yaşayış yerləri bir qayda olaraq çay kənarlarında, axmazlara və qaynamalara yaxın yerdə, bəziləri platforma üzərində, sıldırım sahilində, təsərrüfat üçün əlverişli imkanlar olan sahələrdə salınmışdır. Bəzi yaşayış məskənləri biri-birinə yaxın olmaqla, vahid kompleks təşkil edir. Bəzi abidələr çoxtəbəqəlidir. Belə abidələrdə yaşayış uzun müddətli, fasiləsiz olaraq davam etmişdir. Bu yarımfəsildə həmçinin tikinti qalıqları, ev tikmə texnikası, binaların tikinti materialları, tipoloji xüsusiyyəti və funksiyaları geniş şərh olunub. Tikinti qalıqları araşdırılarkən əsas diqqət baza rolunu oynayan Qaraköpəktəpə qədim yaşayış yerində aşkarlanan tikinti qalıqlarının texnikasına və memarlıq quruluşuna istinad olunur. Xüsusi diqqət buradakı yaşayış binaları və təsərrüfat tikililəri ilə yanaşı enli və möhtəşəm müdafiə divarına ayrılır. Urmiya gölü ətrafındakı "Göytəpə" və "Yanıqtəpə" nin analoji müdafiə tikililəri ilə müqayisələr aparılır.

**İkinci fəslin beşinci yarımfəsli "Mil-Qarabağın ilk tunc dövrü yaşayış yerlərindən məlum olan maddi mədəniyyət nümunələrinin təhlili" adlanır.** Dissertasiyanın bu hissəsində Mil-Qarabağın ilk tunc dövrü yaşayış yerlərindən aşkar olunmuş müxtəlif tip arxeoloji materiallar araşdırılmışdır. Bunların sırasında keramika nümunələri çoxluq təşkil edir. Keramika məmulatının bir qismində (Cüttəpə, Qarahacı, Dəyirman yeri,

Üçoğlan və s. məlum olan) səthi yarıya qədər suvaqlı, qalın divarlı, tünd şabalıdı, qırmızı-bozumtul-sarı anqoblu, amma gilində saman qatışığı olmayan qabların olması əvvəlki eneolit dövrü ənənələri ilə bağlıdır.

Əvvəlki səhifələrdə sadalanmış Mil-Qarabağın bütün yaşayış məskənlərinin keramika məmulatının təhlili baza abidəsi olan Qaraköpəktəpənin çoxsaylı nümunələri əsasında ətraflı şərh olunur. Belə olan halda həmin abidənin "A" və "B" təbəqələrindən məlum olan keramika istinad rol oynayır. Keramika nümunələri təsərrüfat, mətbəx, süfrə üçün nəzərdə tutulmuş, qablardan habelə ocaq qurğuları və s. dən ibarətdir. Buraya küpə, küp, xeyrə-nimçə, bardaq, çölmək, qazan, vaza tipli qabların parçaları, cam, qab altlıqları, diskvari qapaqlar, müxtəlif tip ocaq qurğuları, gil fiqurlar (zoomorf), təkər modelləri, metal əşyalar üçün qəliblər və s. daxildir. Bu dövr keramikasının başlıca aparıcı əlamətləri sırasında llentvari (əsasən ilkin mərhələ üçün) və ya yarımşarşəkilli (inkişaf etmiş mərhələ) qulpların olması, qabların səthinin cilalanması və s. xüsusi yer tutur.

Bu yarımfəsildə yaşayış yerlərindən məlum olan əmək alətlərindən bəhs edilir. Həmin materiallar: 1). təsərrüfatda istifadə olunan; və 2). Yaşayışdə lazım olan alətlərə bölünməklə təhlil edilmişdir. Buraya bir qayda olaraq müxtəlif cinsli daşlardan hazırlanmış toxalar, quraşdırma oraq dişləri, kəsici, deşici, yonucu alətlər, taxılı sünbüldən ayırma üçün işlədilən alətlər (oval daşları), dən daşları, sürtgəclər, həvəng dəstələri kimi alətlər daxildir. Bunlardan başqa alətlər kolleksiyasında ağac kəsmək və yonmaq, dəri soymaq, ət, sümük və buynuz kəsmək, yonmaq, pardaqlamaq üçün istifadə olunmuş bıçaq, mişar, sıyırğac, itiuclu, ərsin, qaşov və s. nümunələr də yer almışdır. Alətlərin bir qismi (eneolit dövrü ilə müqayisədə çox az) sümükdən hazırlanmış (biz, iynə, iy başlıqları – bunalara yalnız Qaraköpəktəpənin alt qatlarında rat gəlinib), digəri isə metala (sancaq, üzük, sırğa, iynə, ərintilər, alət üçün qəliblər) bağlı olanlardır. Silah nümunələrinə dəvəgözü, çaxmaqdaşı, qismən sümükdən hazırlanmış əşyalar – ox, və nizə ucluqları toppuz başlıqları, sapand daşları daxildir.

**Dissertasiyanın "Mil-Qarabağın ilk tunc dövrü qəbir abidələri" adlanan** üçüncü fəsli dörd yarımfəsli özündə birləşdirir. Düzənlik, dağətəyi və dağlıq zonalarda yerləşmiş qəbir abidələri yalnız kurqan tipləri ilə təmsil olunmuşlar. Düzənlik zonanın kurqan abidələri içərisində 1960-cı ildə A.A.İyessen tərəfindən tədqiqatı aparılmış möhtəşəm Üçtəpə kurqanı xüsusi yer tutur. Ağcabədi rayonunun Salmanbəyli kəndi yaxınlığındakı üç böyük ölçülü kurqan qrupunda ilk tunc dövrünə aid bu abidənin 35000 $m^3$ torpaq örtüyünə, 14 m uzunluqda qəbir kamerasına malik olması müəyyən

edilmişdir. Kurqanın ölçüləri və aşkar olunan maddi dəlillərlə sübut olundu ki, Azərbaycanda hələ e.ə. III minillikdə mülki və sinfi təbəqələşmə başlamışdır. Üçtəpə kurqanı təkcə Azərbaycanın deyil, bütövlükdə Cənubi Qafqazın ilk tunc dövrünə aid möhtəşəm abidəsidir.

**Bu fəslin ikinci yarımfəslində Qarabağın dağlıq və dağətəyi zonanın qəbir abidələri** araşdırılır. Dissertasiyada yer almış həmin kurqan abidələri Y.Hümmelin qeydə alaraq arxeoloji qazıntılar apardığı Xankəndi kurqanlarıdır.

Xankəndi kurqanlarının xarici əlamətləri oxşar olsa da (dairəvi quruluşlu, bir qədər yastılanmış təssərrüfatı doğuran daş və qum qatışıq örtük, adi, dördkünc qəbir kamerası), buradakı dəfn adətlərindəki müxtəliflik, yəni kollektiv (1saylı kurqan), cüt (3), tək (1) basdırma, kremasiya və ya inqumasiya qaydaları ilə dəfn etmə ilə bir-birindən fərqlənirlər. Artefaktların say tərkibi baxımından da fərqlilik müşahidə olunmuşdur.

Y.İ.Hümmelin 1938 və 1939-cu illərdə tədqiq etdiyi, habelə L.P.Taşçyanın qazdığı Xankəndinin ilk tunc dövrü kurqanlarının yerüstü xarici əlamətləri, quruluşu, kurqanaltı qəbir kameralarının quruluşu, dəfn adəti, əldə olunan artefaktlar əsasında geniş işıqlandırılır. Yeri gəldikcə ətraf ərazilərin analoji abidələri, materiallardakı oxşar və fərqli xüsusiyyətlər, bu tip kurqanların yayılma arealı, xronologiyası və s. haqqında məlumatlar sıralanır.

Xankəndi kurqanlarında müşahidə olunan dairəvi və ya düzbucaqlı konstruksiyalı, çıxış yolu ağ sal daşlarla qeyd olunmuş, səthi qalın suvaqla örtülmüş kollektiv dəfn adəti, artefaktlardakı xarakterik əlamətlər – Azərbaycanda ilk tunc dövründə dəfn adətlərində mövcud olmuş bir sıra problemlərə işıq salınmasında mühüm rol oynamışdır. Əldə olunan faktlar qədim əhalinin həyat tərzi, inancları və sosial məsələlərinə aydınlıq gətirməsi üçün yaxşı mənbədir.

Borsunlunun ilk tunc dövrü kurqanları Tərtər rayonunun eyni adlı kəndi ətrafında, İncəçayın dərin dağ dərəsindən çıxıb, düzənliyə yayılan sahəsində yerləşir. Kurqanlar 1980-ci ildə qeydə alınmış, 1980-1986-cı illərdə arxeoloji qazıntılarla öyrənilmişdir. Qazıntılarla öyrənilmiş 30-dan artıq müxtəlif tip kurqandan beşi (5) ilk tunc dövrünə aiddir. Bunlar 1981-ci ildə tədqiq olunmuş 7 saylı, 1983-cü ildə qazıntılar aparılmış 9 və 12 saylı, 1986-cı ildə öyrənilmiş 20-və 26 saylı kurqanlardır.

7 saylı kurqanda Xankəndi kurqanlarında olduğu kimi çoxtəbəqəli və səthi suvanmış kollektiv dəfn adəti, 12 saylı kurqanda kollektiv dəfn və kremasiya mərasimi icra olunmuşdur.

Qalan kurqanlar tək dəfnlidir. Quruluş etibari ilə 9 və 12 saylı kurqanlar oxşardır. Bu kurqanlar düzbucaqlı planda olmaqla, hər ikisinin şərq hissəsində giriş yolu vardır. Üçtəpə, Xankəndi abidələrində olduğu kimi 12 saylı kurqanda da qəbirin döşəməsində divar boyu kiçik novça-kanal açılmışdır. Hərçənd ki, 12 saylı kurqan 7 saylı kurqanla birlikdə ilk tunc dövrünün erkən mərhələsinə, 9 saylı kurqan isə o dövrün inkişaf etmiş mərhələsinə aiddir.

Söz yox ki, 7, 12 saylı Borsunlu, habelə Xankəndi kurqanlarında müşahidə olunan dəfn mərasimi, qəbirlərin quruluşu, habelə artefaktlardakı xarakterik əlamətlər qonşu Goranboy rayonundakı "Göl-yeri", "Uzun Rəmə", habelə Qəbələ, Osman Bozu kurqanları ilə bir sırada duraraq etnik-mədəni massivin tərkib hissəsini təşkil edir. Borsunlunun 26 saylı kurqanı ilk tunc dövrünün erkən, 20 saylı kurqanı isə həmin dövrün son mərhələsinə aid materiallar vermişdir. Arxeoloji materialların çoxluğu baxımından 7, 9 və 12 saylı kurqanlar fərqlənir. 9 saylı kurqanda bu dövr üçün xarakterik olan müxtəlif tip keramika nümunələri ilə yanaşı, 9 saylı kurqanda tunc xəncər tiyəsi də tapılmışdır.

**Üçüncü fəslin üçüncü yarımfəslində Mil-Qarabağın ilk tunc dövrü qəbir abidələrinin quruluşu və dəfn adətləri təhlil** edilir. Müxtəlif dövrlərin ictimai-iqtisadi, sosial-mədəni, ideoloji və dini görüşləri, həyat tərzinin araşdırılmasında yaşayış xarakterli maddi dəlillərlə yanaşı, qəbir abidələri ilə bağlı faktiki mənbələrin də mühüm rolu var. Buraya qəbir və qəbirüstü qurğuların konstruktiv xüsusiyyətləri, yəni kurqan, daş qutular, torpaq qəbirləri, kromlexlərin quruluşu, tikinti materialları, tikinti texnikası və s. kimi vacib şərtlər daxildir. Buraya dəfn mərasimi, artefaktlar da daxildir. Bütün bu faktorlar Mil-Qarabağın Xaçınçay, Xankəndi, Üçtəpə, Borsunlu nekropollarının qəbir abidələrinin timsalında yaxşı izlənilmişdir.

Apardığımız araşdırmalardan göründüyü kimi, mövzumuzun əhatə etdiyi zonanın qəbir abidələri həm düzənlik (Üçtəpə kurqanı), həm dağətəyi (Borsunlu nekropolu), həm də dağlıq ərazilərdə (Xaçınçay və Xankəndi kurqanları) yerləşmişdir. Mil-Qarabağın qəbir abidələrini fərqləndirən bir sıra xüsusiyyətlər olsa da, onlarda ümumi cəhətlər daha çoxdur. Ərazi fərqindən başqa özəlliklər sırasında kurqan örtüyü materialları, ölçüləri, artefaktların bəzilərinin seçilməsi, düzənlikdə ağac tirlərin varlığı və s. daxildir.

Qəbir abidələrinin oxşar cəhətləri dəfn adəti, qəbirlərin quruluşu, suvaqla örtülmə, kollektiv dəfn, giriş yolu və novça-kanalın varlığı, artefaktlardan keramikadakı identiklik və s. aparıcı yer tutmuşdur. Bütün

bunlar haqqında dissertasiyanın müvafiq yarımfəslində ətraflı məlumat verilmişdir.

**Üçüncü fəslin dördüncü yarımfəsli "Mil-Qarabağ qəbir abidələrindən məlum olan maddi mədəniyyət nümunələri, təsnifatı və tipoloji xüsusiyyətləri" adlanır.** Qəbir abidələrindən məlum olan arxeoloji materiallar içərisində müxtəlif tip və quruluşlu saxsı qablar aparıcı yer tutur. 2 saylı Xaçınçay kurqanından məlum olan simmetrik quruluşlu, şarvari gövdəli, nazik-cingiltili divarlı qab istisna olmaqla, qalan keramika əldə - dulus çarxı olmadan hazırlanmışdır. Ümumiyyətlə, saxsı materiallar küpə, bankavari qab, xeyrə, cam, bardaq, kasa və s. tipli qablardan ibarətdir.

Küpələrin əksəriyyətinin səthi qaramtıl-boz və ya açıq-sarımtıl rənglidir. Alçaq silindrik boğazları var, ağız kənarı düz, oturacağı dar və yastı, gövdəsi uzunsov-yuvarlaqdır. Bəzilərində boğazdan gövdəyə keçən hissədə xarakterik batıq çəkilib. Digər küpələr ikili konusvari quruluşlu olub, qulpları lentvari və ya yarımşar formalıdır. Əksər qəbir materiallarının səthi sayadır. Üzərində yapışdırma "məməciklər", bəzən isə cızma, qabarıq xətlərlə naxışlanan küpələr də vardır.

Bardaqların boğazı bir qayda olaraq hündür və silindrikdir. Ağız kənarı düz və azacıq yanadır. Küpələrdən fərqli olaraq boğazdan gövdəyə keçən hissə rəvandır. Əksəriyyətində ağız kənarı ilə çiyin hissəsini, digərində boğazla çiyin hissəsini birləşdirir bu dövr üçün xarakterik biçimli qulplar vardır.

Camlar Mil-Qarabağın əksər qəbir abidələrinin materiallarında təmsil olunmuşdur. Bu qab tipləri ağzının genişliyi, oturacağının dar olması və gövdədən aşağı hissəsinin qalınlığı ilə fərqlənir. Onların ağız kənarı düz olub və içəriyə və çölə qatlaması yoxdur.

Banka tipli qablar formasına görə təkqulp parçları xatırladır.

Xeyrələr Kür-Araz mədəniyyətinin yaşayış məskənlərində geniş istifadə olunan qablardandır. Onların səthi qara, qırmızı və boz rənglidir. Ağız kənarı əsasən içəriyə əyintilidir. Bəzilərində qulp əvəzinə müxtəlif çıxıntılar vardır.

Keramika nümunələrinin bənzərlərinə həmin dövrün Qəbələ, Osmanbozu, Gölyeri, Şadılı, Uzun Rəmə, habelə Naxçıvan abidələrində təsadüf olunmuşdur.

Qəbir avadanlıqlarına digər hissəsi daş və metaldan hazırlanmış müxtəlif növlü silah, bəzək əşyaları və s. daxildir.

Meqrel, tuf və müxtəlif cinsli daşlardan olan toppuz başlıqları Xaçınçayın 2 və 4 saylı, habelə Xankəndinin 119 və 125 saylı

kurqanlarından tapılmışdır. Onların ortası silindrik deşikli, kənarı yastı-şarşəkilli və ya armudvari quruluşludur.

Çaxmaqdaşından hazırlanmış arxası çıxıntılı və oymalı olmaqla iki tipə bölünən ox ucluqları Xankəndinin 119 və 125 saylı kurqanlarından məlumdur. Bu tip ox ucluqları Azərbaycanın bir sıra ilk tunc dövrü abidələrindən tapılmışdır.

Daş məmulatı içərisində həmçinin bıçaq lövhələri, iy ucluqları, həvəng dəstələri, pərsənglərə də rast gəlinmişdir.

Metal əşyaların sırasında tuncdan arxaiq quruluşlu xəncərlər (2 və 3 saylı Xaçınçay kurqanları, 119 və 125 saylı Xankəndi kurqanları, 9 saylı Borsunlu kurqanı) xüsusilə seçilir. Onların oxşarları Naxçıvan, Xaçmaz, Goranboyun həmdövr kurqanlarından və bütövlükdə Qafqaz regionundan məlumdur.

Tunc baltalar əsasən borulu – gözlü, küplü və yastı quruluşlu olmaqla təsadüfi tapıntılardan ibarətdir (Ağdam – Küllütəpə - Xındırıstan).

Tədqiqata cəlb olunan abidələrin bəzilərində nadir metal – qızıldan hazırlanmış əşyalar da tapılmışdır. Bu tip əşyalara Xaçınçayın 2 saylı kurqanından məlum olan, nazik qızıl lövhədən hazırlanmış, içərisi boş, silindrik quruluşlu, səthi döymə bəzəkli silindrik bəzək əşyası və 3 saylı kurqanın çəlləkvari formalı qızıl muncuğu misal ola bilər. Qızıl muncuqlar və sırğa Xankəndinin 119 və 125 saylı kurqanlarından da aşkar olunmuşdur.

Beləliklə, Mil-Qarabağın qəbir abidələrinin artefaktları təhlil olunarkən, onların hazırlandığı xammal, vəzifələrinə uyğun tipoloji xüsusiyyəti, forma və quruluşu, həmçinin tətbiq dairəsi nəzərdən keçirilmişdir. Qonşu ərazilərin həmdövr və eyni tipli materialları ilə müqayisələr aparmaqla yanaşı, onların eyni zamanda bölgə üçün Azərbaycan üçün ümumi, özünəməxsusluğunu göstərməyə çalışmışıq.

**Dissertasiyanın "Mil-Qarabağın ilk tunc dövrü əhalisinin iqtisadi durumu adlanan"** və dörd yarımfəsildən ibarət olan IV fəslində faktiki materiallara əsasən təsərrüfatın müxtəlif sahələrinin inkişaf tərzi, əhalinin məşğuliyyətində aparıcı sahələr haqqında ətraflı məlumat verilir. Ərazinin mülayim iqlimi, münbit torpaq sahələri, yetərincə su ehtiyatı burada əkinçilik və maldarlığın hələ qədim zamanlardan inkişafına əlverişli şərait yaratmışdır. Bölgənin bol sulu çay hövzələri – Araz çayının orta axarı, onun sol sahil qolları olan Quruçay və Köndələnçay, habelə Qarqarçay, Xaçınçay, Tərtərçay və İncəçayın əhatə dairəsi daxilində təsərrüfat sahələrinin intensiv inkişafı mümkün olmuşdur.

Təsərrüfat sahələri içərisində əkinçilik xüsusi yer tutmuşdur. Qaraköpəktəpədə aparılan stasionar qazıntılar, habelə Şəkərcik, Meynətəpə, Uzuntəpə, Kültəpə, Üçoğlan, Çardaxlı təpə, Cüttəpə, Dəyirmanyeri, Şortəpə yaşayış yerlərindəki yoxlama qazıntılarının materialları ərazidə əkinçiliyin şox sahəli olması, səviyyəsi haqqında mülahizə yürütməyə imkan vermişdir. Yaşayış yerlərinin ətrafında müxtəlif növ dənli bitkilər əkmək və becərmək üçün əlverişli şərait olmuşdur.

**4.1. Əkinçilik** təsərrüfat atının təşəkkülünün neolit dövründən başlanmasını, eneolit dövründə daha da inkişaf etməsini birmənalı olaraq qəbul edərək, bu prosesin erkən tunc dövründə keyfiyyətcə fərqli mərhələyə qədəm qoymasının şahidi oluruq. Bu baxımdan bir çox əlamətlərinə görə Mil-Qarabağın müstəsna yeri olmuşdur. Əlimizdə olan əkinçiliklə bağlı adətlər bunu əyani göstərir. Bunların sırasında müxtəlif məqsədlər üçün hazırlanmış daş toxalar, quraşdırma oraq dişləri, lövhələr, dən daşları, sürtgəclər, həvəng dəstələr və s. bu kimi əkinçiliklə bilavasitə bağlı olan alətlər mühüm yer tutur.

Məlum olduğu kimi, ilk tunc dövrünün erkən mərhələsində toxa əkinçiliyi davam etsə də, sonrakı mərhələdə metallurgiyanın inkişafı ilə bəsit xışlardan istifadə olunmağa başlanmışdır. Bu isə öz növbəsində məhsuldarlığı artırmışdır. Çox güman ki, bol sulu Araz çayı sahilindəki Çardaxlı təpələri, Köndələnçay və Quruçay vadisinin Qaraköpəktəpə, Kültəpə, Uzuntəpə, Günəştəpə, Qarqarçayın sol sahilindəki Qarahacılı, habelə indi yataqları quruyaraq dərin qobular halında qalmış bəzi çayların sahil zonasında yerləşmiş Üçoğlan, Cüttəpə və s. kimi yaşayış məskənlərinin əhalisi əkinlərin becərilməsində süni suvarmadan istifadə etmişlər. Əkinçiliyin inkişafı ilə dənli bitki məhsullarını, habelə üyüdülmüş unu və s. saxlamaq üçün xüsusi qabların istehsalı nizama salınmışdır.

**4.2. Maldarlıq.** Mil-Qarabağın ilk tunc dövrü əhalisinin təsərrüfat həyatında maldarlıq da mühüm yer tutmuşdur. Bunu fauna qalıqları da aydın sübut edir.

Tədqiqatlar göstərir ki, ilk tunc dövründə tarixdə ilk böyük ictimai-əmək bölgüsü baş vermiş, maldar və əkinçi tayfalar biri digərindən ayrılmışlar. Bu dövrün erkən mərhələsində üstün yeri iribuynuzlu mal-qara tutmuşdur. Sonrakı mərhələ də təsərrüfat ukladının dəyişməsi, yaylaq və ya yarımköçmə maldarlığının geniş vüsət alması ilə xırda davarlar - qoyun və keçi say etibarilə çoxluq təşkil etmişdir.

Osteoloji qalıqların mütəxəssis təhlili ev heyvanlarının say artımını sübut edir. Q.İsmayılzadənin araşdırmalarına görə Kiçik Qafqazın Cənub

Şərq ətəklərinin yaşayış məskənlərindən məlum olan 12 mindən artıq heyvan sümüyünün 90%-ə yaxını məhz ev heyvanlarına məxsus olmuşdur.

Bütövlükdə, tədqiqatda cəlb olunmuş ərazinin ilk tunc dövrü əhalisinin maldarlıqla bağlı təsərrüfat həyatında iribuynuzlu mal-qara, qoyun-keçi, müəyyən qədər ev donuzu saxlanılmışdır. Bunlarla yanaşı qədim insanlar öz tələbatlarını ödəmək üçün qismən ovçuluq, quşçuluq, balıqçılıqla da məşğul olmuşlar.

Atçılığın meydana çıxması şübhə doğura bilməz. Xüsusilə yarımköçəri-yaylaq maldarlığının təsbit tapması ilə atçılığa olan ehtiyac dəfələrlə artmışdır.

**4.3. Sənətkarlıq.** Mil-Qarabağın ilk tunc dövrü əhalisinin həyat və yaşayışında inkişaf etməkdə olan sənətkarlıq sahələri də önəmli yer tutmuşdur. Buraya dulusçuluq, bəsit metallurgiya və metalişləmə, daş və sümükişləmə, bəsit toxuculuq, dəri aşılaması və ağacişləmə kimi sahələr aid olmuşdur. Dissertasiyanın müvafiq hissəsində bunlar geniş şərh olunmuşdur.

Məlum faktdır ki, hələ neolit dövrünün sonlarından başlayaraq cəmiyyətin həyatında baş vermiş əsaslı dəyişikliklərlə bağlı bəsit formada olsa da, saxsı qablar hazırlanmışdır. Eneolit dövründə saxsı qabların istehsalında xeyli irəliləyiş baş versə də, keramika ilə bağlı əsil dəyişiklik erkən tunc dövründən başlamışdır. İlk tunc dövründə saxsı məmulatının həm çeşidində, həm də forma, tipologiya və hazırlanma texnologiyasında xeyli yeniliklər izlənilmişdir. Buraya qabların quruluşu və strukturundakı simmetriklik, ağız kənarının tam ifadə olunması, boğaz hissəsinin gövdədən batıq və ya qabarıq xətlə ayrılması, lentvari və ya yarımşar formalı qulplarla təchiz olunması, bir qrup keramikanın səthinin metal parlaqlığına qədər xüsusi texnologiya tətbiq etməklə cilalanması habelə, yalnız ilk tunc dövründə tətbiq olunmuş naxışlamanın mövcudluğu, ocaq qurğuları, qapaqların hazırlanması kimi yeniliklər və s. daxildir.

Metallurgiya və metalişləmə. Tədqiqatçıların qeyd etdiyi kimi, ibtidai insanların metalla ilkin tanışlıq hələ eneolit dövründən başlanmışdır. İlk vaxtlar soyuq döymə, sonra qızdırma yolu ilə bəsit metal əşyalar hazırlayan qədim Mil-Qarabağ sakinləri artıq eneolitin final mərhələsində metalərimənin sirləri ilə tanış olmuşlar. Leylatəpə ilə yanaşı, son illərin tədqiqatları Böyükkəsik, Alxantəpə, Qalayeri, Soyuqbulaq abidələrində də belə faktlara rast gəlinmişdir.

Toxuculuq neolit dövründən yaşayışda yer tutmuşdur. Bu peşə sahəsi zaman keçdikcə daha da təkmilləşmiş, eneolit dövründə ev sənətkarlığının tərkib hissəsi kimi formalaşmışdır. İlk tunc dövründə

xırdabuynuzlu heyvanların say artımı ilə lazımi xammal bolluğu da müşahidə olunmuş, bu isə toxuculuqda yeni mərhələyə şərait yaratmışdır. Arxeoloji dəlillər içərisində iy ucluqlarının, biz, iynə, pərsənglərin varlığı, toxuma həsir qalıqları və "toxuma" keramikanın nümunələri də mühüm əhəmiyyət kəsb edir.

Araşdırmalarımızdan məlum olur ki, qədim əhali arasında daşişləmə ilə məşğul olan sənətkarlar olmuşdur. Daş alətlər hətta metaldan istifadənin geniş miqyas aldığı tuncun inkişaf etmiş mərhələlərində də müəyyən qədər yaşayış və təsərrüfatda istifadə olmuşdur. Daş alətlərin bir qayda olaraq bu və ya digər yaşayış məskənlərində hazırlanması dəlillərlə sübut olunmuşdur. Daşdan çıxarışlar, qəlpələr də buna işarədir. Çoxsaylı və müxtəlif quruluşlu dən daşları, sürtgəclər, həvəng və dəstələr, qaşov, oraq dişləri, bıçaqlar, ox ucları, asmalar və s. kimi maddi mədəniyyət nümunələri Mil-Qarabağın ilk tunc dövrü abidələrinin kolleksiyaları tərkibinə daxildir.

Abidələrdən xeyli miqdarda sümük alətlər və başqa əşyalar da tapılmışdır. Sümükdən təsərrüfatda yardımçı olan alətlər (toxa, biçin vasitəsi), ovçuluqda (ox ucları, iti uclular), habelə yaşayışdə (biz, iynə, ərsin və sairə) işlədilən ən müxtəlif əşyalar hələ eneolit dövründən geniş yer almışdır. İlk tunc dövründə onların say tərkibi müəyyən qədər azalsa da, hər halda belə artefaktlar yenə istifadədə olmuşdur. Sümük məmulatına Qaraköpəktəpədə daha çox təsadüf olunmuşdur.

Sənətkarlığın daş və ağacişləmə kimi sahələri də mövcud olmuşdur. Bərk cinsli daşlardan, metal və sümükdən müxtəlif alətlər, yaşayışdə işlədilən əşyalar hazırlamağı bacarmış qədim Mil-Qarabağ əhalisi dəri kimi daha asan emal oluna bilən xammaldan da ən müxtəlif lazımi əşyalar düzəltməyi bacarmışlar. Bu və ya digər əşya hazırlayarkən həm vəhşi heyvanların (tülkü, çaqqal, canavar və s.), həm də ev heyvanlarının (qoyun, keçi, mal-qara) dərilərindən istifadə olunmuşdur. Bu dərilərdən torba, kisə, çuval, heybə-xurcun və s. tikib istifadə edirdilər.

Eyni sözləri ağacişləmə haqqında da demək olar. Ağacı oymaqla ondan təknə, yemək qabları, qaşıq, ərzaq saxlamaq üçün çanaq, çəllək və s. hazırlmışlar. Ağaca inanc yeri kimi də baxılmış, hətta ondan qəbir abidələrində də istifadə olunmuşdur (Üçtəpə kurqanı).

Beləliklə, deyilənlərdən göründüyü kimi, ilk tunc dövründə bütövlükdə Azərbaycanda və onun tarixən ayrılmaz tərkib hisəsi olan Mil-Qarabağda insanlar təsərrüfatın, iqtisadi həyatın ən müxtəlif sahələri ilə məşğul olmuşlar. Arxeoloji faktlar bunu əyani sübut edir.

**Nəticə.** XX əsrin 40-cı illərindən başlayaraq zaman-zaman, müxtəlif tədqiqatçıların səyi və əməyi ilə formalaşdırılaraq elmi sistem halına salınmış bütöv bir dövrün, ilk tunc dövrünün problemlərinin araşdırılması bir çox məsələlərə işıq salmağa imkan vermişdir. Bir neçə nəsil arxeoloq alimlərin dəfələrlə qeyd etdiyi kimi ilkin variantı görkəmli qafqazşünas alim B.A.Kuftin tərəfindən əsaslandırılaraq «Kür-Araz eneoliti» adı ilə tanıdılan bu mədəniyyətin yayılma arealı, coğrafiyası, etnik mənsubiyyəti, ilkin təşəkkül və formalaşma ocağı ilə bağlı müxtəlif fikirlər söylənilmişdir.

XIX əsrin 80-ci illərindən başlayaraq müəyyən fasilələrlə, XXI əsin əvvəllərinə qədər olan dövrdə, zaman-zaman, ayrı-ayrı nəsil arxeoloqları tərəfindən abidələrin aşkar və tədqiqi həyata keçirilmişdir. Nəticədə, müxtəli tarixi mərhələlərlə yanaşı, ilk tunc dövrünün ən mühüm problemlərinin araşdırılmasına imkan verəcək maddi mənbələr kompleksi formalaşmışdır. Abidələr müxtəlif xarakterli və funksiyalıdır. Buraya həm qəbir abidələri, həm də yaşayış yerləri aiddir.

Bizim təqdim etdiyimiz dissertasiyada Mil-Qarabağın yaşayış məskənlərinin xarakteristikası, yerləşmə coğrafiyası və tikinti texnikası çoxsaylı maddi mədəniyyət nümunələri Azərbaycanın başqa bölgələrinin həmdövr abidələri fonunda şərh olunur. Bu abidələrin özünəməxsus xüsusiyyətləri ilə yanaşı, onların ümumi cəhətləri ayırd edilir. Maddi nümunələrin kəmiyyət və keyfiyyət nisbətlərinə aydınlıq gətirilir.

Araşdırmalarla müəyyən edilmişdir ki, Mil-Qarabağın ilk tunc dövrü abidələri sırasında kurqanlar bir qayda olaraq aparıcı yer tutmuşdur. Bölgənin erkən qeydə alınmış tunc dövrünə aid ilk tarixi yadigarları elə qəbir abidələri olmuşdur. Qəbir abidələrinin təhlili tək və ya kollektiv (kütləvi) dəfnlərin, ölünün olduğu kimi (inqumasiya) və ya yandırma (kremasiya) adəti ilə basdırılması, əhalinin dünya görüşü haqqında fikir yürütmək üçün tutarlı mənbələrdir.

İlkin böyük ictimai əmək bölgüsünün (əkinçi tayfaların maldarlardan ayrılması) reallaşması ilə baş verən ixtisaslaşmalar, əvvəllər eyni tayfanın tərkibində olmaqla əldə olunan əkinçilik və maldarlıq məhsullarının mübadilə edilməsinə yol açmışdır. Beləliklə, deyilənləri yekunlaşdıraraq bir daha vurğulamağı vacib bilirik ki, bütövlükdə Azərbaycanın başqa bölgələrində olduğu kimi onun əbədi və ayrılmaz bir tərkib hissəsi olan Mil-Qarabağ ərazisində də tarixi inkişafın bütün mərhələlərində olduğu kimi ilk tunc dövründə də həyatın bütün sahələrində dinamik inkişaf mövcud olmuşdur.

**Dissertasiyanın əsas məzmunu iddiaçının nəşr olunmuş məqalələrində öz əksini tapmışdır.**

1. Qarabağın ilk tunc dövrü abidələrinin öyrənilməsi tarixi haqqında qısa məlumat // Tarix və onun problemləri. №2, Bakı, 2013, səh. 452-455.
2. Borsunlu nekropolunda kremasiya mərasimli 12 saylı ilk tunc dövrü kurqanı // Azərbaycan Arxeologiyası və Etnoqrafiyası. Bakı, 2014. №1, səh. 76-82.
3. Подкурганные склепы Горного Карабаха Азербайджана эпохи ранней бронзы и их некоторые паралелли // Національний педагогічный университет імені М.П.Драгоманова. Украінька Академия Наук. Гілея Випуск 90 (№11). Киев 2014, səh. 187-190.
4. Qarabağda Üçoğlan və Dəyirman yeri ilk tunc dövrü yaşayış məskənləri haqqında // Pedaqoji Universitet Xəbərləri. Humanitar elmlər seriyası. Bakı 2014, №2, səh. 119-124.
5. Mil düzünün ilk tunc dövrü arxeoloji abidələri (yaşayış yerləri əsasında) // AMEA Xəbərləri. İctimai elmlər seriyası. Bakı,2015. №4, səh. 79-87.
6. Mil-Qarabağ bölgəsinin erkən tunc dövrünün istehsal təsərrüfatı // Tarix, insan, cəmiyyət. Elmi nəzəri və elmi-metodiki jurnal. Bakı 2016, №1, səh. 72-79.
7. Mil-Qarabağ bölgəsinin ilk tunc dövrü sənətkarlığı // Eurasian Academy of Sciences Social Science Journal. Turkey 2016, səh.137-145.
8. Çardaxlı təpələri yaşayış yeri kompleksi // AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu. Qarabağın arxeoloji irsi. Beynəlxalq elmi konfrans materialları. Bakı 2016, 28-30 noyabr, səh.58.
9. Early Bronze age cremation ceremony burial in Borsunlu. XIII международная конференции «Развитие науки в XXI веке». Украина 19 мая 2016г., səh.16-18.

**Джамиля Вагиф кызы Гасанова**

**Материальная культура эпохи ранней бронзы Миль-Карабаха.**

**РЕЗЮМЕ**

Диссертация на соискание учёной степени доктора философии по истории посвящена анализу материальной культуры племён Миль-Карабаха эпохи ранней бронзы.

Диссертационная работа состоит из введения, четырёх глав, заключения, списка использованной литературы и таблиц, отражающих археологический материал.

Во введении нашли отражение актуальность темы, цель и задачи, объекты темы, метод исследования, хронологические рамки исследования, новизна, источниковедческая база, степень изученности темы, научная и практическая значимость, апробация исследований.

I глава состоит из двух подглав и посвящена естественному географическому анализу региона, а также краткой истории археологического изучения Миль-Карабаха.

Во II главе, состоящей из пяти подзагалавков, освещаются поселения, обнаруженные и исследованные в районах Физули, Бейлаган, Агджабеди, Агдам, Кельбеджар, Барда, а также закономерность размещения топографии, строительной техники и остатки строений. Там же анализируются образцы материальной культуры.

В III главе "Погребальные памятники Миль-Карабаха эпохи ранней бронзы", включающие четыре подзаголовка, исследуются погребальные памятники, типы погребальных сооружений, обряд погребений и артефакты, выявленные в погребениях.

В IV главе "Экономическое положение населения Миль-Карабаха в эпоху ранней бронзы", состоящий из трёх подзаголовков, проанализированы такие отрасли хозяйства как земледелие, сководство и ремесленное производство (керамическое производство, металлургия и металлообработка и т.д. косторезное, кожевенное и т.д.) производство.

В заключительной части диссертации подведены итоги исследуемых в диссертации вопросов и обобщены научные выводы.

**Jamila Vagif gizi Hasanova**

**Material culture of the early Bronze Age of Mil-Karabakh.**

**SUMMARY**

The thesis for the degree of Doctor of Philosophy in history is devoted to the analysis of the material culture of the Early Bronze Age Mil-Karabagh tribes.

The thesis consists of an introduction, four chapters, conclusion, a list of used literature and tables reflecting archaeological material. The introduction reflected the relevance of the topic, the purpose and objectives, the subjects of the topic, the method of research, the chronological scope of the study, the novelty, the source study base, the degree of study of the topic, the scientific and practical significance, and the robbing of research.

The first chapter consists of two sub-chapters and is dedicated to the natural geographical analysis of the region, as well as a brief history of the archaeological study of Mil-Karabakh.

In Chapter II, consisting of five subheadings, the settlements discovered and explored in the Fizuli, Beylagan, Agdjabedi, Agdam, Kelbajar, Barda areas, as well as the regularity of location of topography, construction equipment and the remains of buildings are covered. Samples of material culture are also analyzed there.

In the third chapter "Funeral monuments of the Early Bronze Age of Mily-Karabagh", including four subheadings, burial monuments, types of funerary constructions, burial rites and artifacts discovered in burials are explored.

In Chapter IV, "The economic situation of the population of the Milky-Karabakh in the Early Bronze Age," consisting of three subheadings, such branches of the economy as agriculture, crocheting and handicraft production (ceramics, metallurgy and metalworking, etc. bone-cutting, tannery, etc.) production.

In the final part of the thesis, the results of the questions studied in the dissertation are summed up and scientific conclusions summarized.

НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА
ИНСТИТУТ АРХЕОЛОГИИ И ЭТНОГРАФИИ

---

*На правах рукописи*

ДЖАМИЛЯ ВАГИФ кызы ГАСАНОВА

# МАТЕРИАЛЬНАЯ КУЛЬТУРА ЭПОХИ РАННЕЙ БРОНЗЫ МИЛЬ-КАРАБАХА

**5505.02 – Археология**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени
доктора философии по истории**

**БАКУ - 2017**